UOT: 33:336

Lamiyə Əskər qızı AZADLI
Azərbaycan Kooperasiya Universiteti, magistrant
e-mail: azadli.lamiya@gmail.com,
Ədalət Məhyəddin oğlu ƏSƏDOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent, adalatasad50@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2026.005.062

BİZNES SUBYEKTLƏRİNİN DAYANIQLI İNKİŞAFINDA RƏQABƏT AMİLİNİN NƏZƏRİ VƏ PRAKTİK ASPEKTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi – biznes subyektlərinin davamlı inkişafında rəqabət amilinin nəzəri və praktiki əhəmiyyətini araşdırmaq, rəqabət mühitinin səmərəliliyini artırmaq üçün strateji istiqamətləri müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqatın metodologiyası – Araşdırmada sistemli və kompleks yanaşma tətbiq olunaraq induksiya və deduksiya metodlarından istifadə edilmişdir. Həmçinin rəqabətin müxtəlif növləri və yanaşmaları müqayisəli təhlil olunmuş, beynəlxalq iqtisadi ədəbiyyat və nəzəri modellər əsasında ümumiləşdirmələr aparılmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Alınmış nəticələrdən sahibkarlığın inkişafına dair dövlət siyasətinin formalaşdırılmasında, biznes mühitində rəqabət qabiliyyətinin yüksəldilməsində, eləcə də istehsal və xidmət sahələrinin keyfiyyət standartlarının tətbiqində istifadə oluna bilər. Nəticələr həm nəzəri, həm də praktiki baxımdan rəqabət mexanizmlərinin təkmilləşdirilməsinə yönəlmişdir.

Tədqiqatın nəticələri – tədqiqatın nəticələri göstərir ki, rəqabət biznes subyektlərinin uzunmüddətli ikişafında təməl amil olmaqla məhsul və xidmətlərin keyfiyyətinin artırılmasına, innovasiyaların tətbiqinə, müştəri məmnuniyyətinin yüksəldilməsinə və səmərəli resurs istifadəsinə birbaşa təsir göstərir. Rəqabətqabiliyyətlilik olmadan davamlı inkişafın təmin edilməsi mümkün deyil və bu, yalnız əlverişli rəqabət mühitinin mövcudluğu şəraitində mümkündür.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Tədqiqatda rəqabət anlayışına müxtəlif nəzəri yanaşmalar sistemləşdirilmiş, sahədaxili və sahələrarası rəqabətin iqtisadi inkişafdakı rolu ətraflı şəkildə izah olunmuşdur. Xüsusilə, rəqabətin yalnız iqtisadi deyil, həm də sosial və ekoloji dayanıqlılıq üçün zəruri olduğu əsaslandırılmışdır. Elmi yenilik ondan ibarətdir ki, tədqiqatda rəqabət amili davamlı inkişafın əsas şərti kimi nəzərdən keçirilərək həm istehsalın səmərəliliyi, həm də müəssisələrin bazar mövqeyinin möhkəmlənməsi baxımından yeni nəticələr ortaya qoyulmuşdur.

Açar sözlər: qlobal iqtisadiyyat, əlverişli rəqabət mühiti, biznes subyektləri, sahədaxili rəqabət, sahələrarası rəqabət.

Giriş

İqtisadi, sosial və ekoloji amillərin təsiri altında biznes subyektlərinin uzunmüddətli uğuru rəqabət amilindən mühüm dərəcədə asılıdır. Rəqabət bazar iqtisadiyyatının əsas prinsiplərindən biri olmaqla resursların səmərəli istifadəsini, innovasiyaların tətbiqini və xərclərin optimallaşdırılmasını stimullaşdırır. O, müəssisələri müştəri məmnuniyyətini artırmağa, məhsul və xidmət keyfiyyətini yüksəltməyə və yeni həllər təqdim etməyə sövq edir. Beləliklə, daha səmərəli fəaliyyət göstərən subyektlər bazarda liderlik mövqeyi qazanır, digərləri isə geridə qalır. Qlobal miqyasda artan ticarət əlaqələri, texnoloji inqilablar və sosial-iqtisadi qeyri-müəyyənliklər biznes mühitini daha mürəkkəb və rəqabətli edir. Bu şəraitdə yalnız daxili resursların optimallaşdırılması kifayət etmir; uğur rəqabətədavamlılıq və bazarda mövqeyi qorumaq qabiliyyətindən asılıdır. Rəqabət şirkətləri təkcə bazar üstünlüyü uğrunda mübarizəyə deyil, həm də sosial məsuliyyətlərini icra etməyə, ekoloji təsirləri minimuma endirməyə və uzunmüddətli davamlılığı təmin etməyə məcbur edir. Müasir biznesdə uğur yalnız məhsulun keyfiyyəti ilə deyil, eyni zamanda dəyər təklifi, müştəri təcrübəsi,

marka imici və innovativ yanaşmalarla ölçülür. Dayanıqlı inkişaf üçün müəssisələr cəmiyyətin ehtiyaclarına uyğun fəaliyyət göstərməli, sosial və ekoloji problemlərin həllinə töhfə verməlidirlər. Çünki rəqabət artıq yalnız maliyyə qazancı deyil, həm də sosial rifah və ekoloji dayanıqlılıq baxımından mühüm mexanizmə çevrilmişdir. Beləliklə, rəqabət bizneslərin davamlı inkişafının təminində strateji faktor kimi çıxış edir və bu məqalədə onun rolu, tətbiq edilən yanaşmalar və rəqabətə davamlılığın formalaşdırılması yolları müzakirə ediləcəkdir [4, s.242-268].

Tələb və təklifin tarazlığını təmin edən bazar mexanizmi

Qeyd edilənlərə əsasən, təsərrüfat subyektlərinin inkişafı rəqabət olmadan təsəvvür edilə bilməz. Rəqabət, hər iki müəssisəni daha çox əmək sərf etməyə məcbur etsə də, nəticədə eyni məhsulu istehsal edən hər iki müəssisə öz məhsulunu inkişaf etdirmək, satış qiymətlərini optimallaşdırmaq və ümumilikdə fəaliyyətlərini daha da təkmilləşdirmək məcburiyyətində qalır. Bəzi iqtisadçılar rəqabətsiz inkişafın mümkün olduğunu iddia etsələr də, əksər görüşlərə görə rəqabət, iqtisadi inkişafın sürətlənməsinə və məhsulun beynəlxalq keyfiyyət standartlarına tez uyğunlaşmasına kömək edir. Başqa sözlə, rəqabət məhsulun səmərəli inkişafını təmin edir və müəssisələrin daha effektiv fəaliyyət göstərmələrini şərtləndirir. Buna görə də, təsərrüfat subyektlərinin rəqabətqabiliyyətli məhsul istehsalı həyati əhəmiyyət daşıyır. Rəqabətin tərifi ilə bağlı iqtisadi ədəbiyyatda müxtəlif yanaşmalar mövcuddur. Lakin ümumi qənaət ondan ibarətdir ki, rəqabət bazarın hərəkətverici qüvvəsi kimi əsas mexanizm hesab olunur. Bu, eyni məhsul kateqoriyasına aid mallar istehsal edən fərqli müəssisələrin eyni istehlakçı tələblərini qarşılayaraq, eyni müştərilər üçün rəqabət apardıqları bazar vəziyyətidir. Rəqabət, müəssisənin bazarda varlığını qorumasının əsas şərtidir. Başqa sözlə, bir müəssisə nə qədər rəqabətqabiliyyətlidirsə, bazarda o qədər möhkəm mövqe tutacaq və özünün liderlik rolunu qazanacaqdır. Rəqabətli iqtisadiyyatlara sahib ölkələr məhdud olan resurslardan səmərəli şəkildə istifadə edərək, bu resursların optimal istifadəsini təmin edir. Nəticə etibarilə, bu ölkələr iqtisadiyyatın tənzimlənməsində mühüm bir rol oynayır. Bazar iqtisadiyyatının hökm sürdüyü şəraitdə əlverişli rəqabət mühiti istehlakçının tələblərinə uyğun olaraq, ən keyfiyyətli məhsulu ən münasib qiymətlə təklif etməyi təmin edir [5,s.127-143]. Rəqabət yalnız iqtisadiyyatda deyil, həm də təbiətdə, insan cəmiyyətində, müxtəlif mülkiyyət formaları və iqtisadiyyat sahələri arasında, o cümlədən ölkələr, millətlər və xalqlar arasında da mövcuddur. Rəqabət, həyat üçün vacib olan resurslar və imkanlar uğrunda gedən bir mübarizə, açıq və ya gizli bir yarışdır. Rəqabət, bazar münasibətlərinin mahiyyətini və iqtisadi mühitin əsasını təşkil edən fundamental bir anlayışdır. Kapitalizm və bazar iqtisadiyyatı şəraitində isə rəqabət daha da dərinləşir, genişlənir və sosial, iqtisadi sahələrdə əhəmiyyətli dərəcədə nüfuz qazanır. İqtisadi ədəbiyyatda rəqabət anlayışına müxtəlif yanaşmalar mövcuddur, bunlar arasında həm mikroiqtisadi, həm də makroiqtisadi ölçülərdə təhlil edilən rəqabət, müəssisələrin bazar şəraitində necə qarşılıqlı əlaqə qurduqlarını və iqtisadi inkişafı necə sürətləndirə biləcəklərini izah edir. Rəqabət həm də sosial, mədəni və ekoloji sahələrdə mühüm dəyişikliklərə səbəb olur və müsbət mənada iqtisadiyyatın hərəkətverici qüvvəsinə çevrilir [6,s.438-442]. İqtisadi ədəbiyyatlarda rəqabət məfhumuna üç istiqamət üzrə çoxsaylı yanaşmalar mövcuddur.

- Tələb və təklifin tarazlığını təmin edən bazar mexanizmi kimi;
- Sahə bazarlarının tipini müəyyən edən meyar kimi;
- Yarış kimi.

Bu yanaşma, klassik iqtisadi nəzəriyyənin əsas prinsiplərindən biri kimi qəbul edilir. Klassik iqtisadçılar qiymətlərin yaranmasının və bazardakı təklif və tələb münasibətlərinin qurulmasının əsas amili olaraq rəqabəti göstərirlər. Onlara görə, bazarda qiymətlərin tənzimlənməsi və əmtəələrin təklifi ilə tələb arasındakı balansın təmin olunması rəqabətin birbaşa təsiri ilə həyata keçir. Bu yanaşma, rəqabəti bazar iqtisadiyyatının mühüm bir komponenti və tənzimləyicisi kimi qəbul edir. Beləliklə, bazarda qiymətlərin formalaşması əsasən bazar iştirakçılarının bir-birinə qarşı apardığı rəqabət mübarizəsi nəticəsində baş verir. Tələb və təklif arasındakı əlaqə rəqabət mühitində özünü ən yaxşı şəkildə göstərir, çünki hər bir istehsalçı və istehlakçı bazar şərtləri daxilində öz mənfəətini artırmaq və ya tələbatını ödəmək məqsədi ilə ən əlverişli şərtləri əldə etməyə çalışır

[7,s.221-235]. Rəqabət bu münasibətlərdə mühüm rol oynayır, çünki istehsalçılar və satıcılar arasında olan mübarizə, qiymətlərin və məhsulun keyfiyyətinin artmasına, eyni zamanda bazarda resursların daha səmərəli paylanmasına şərait yaradır. Klassik yanaşmaya görə, rəqabət yalnız qiymətlərin düşməsinə deyil, həm də istehsal proseslərinin optimallaşmasına və yeniliklərin tətbiqinə səbəb olur. Bazar iştirakçılarının mübarizəsi hər zaman təkmilləşdirmə, məhsul çeşidlərinin genişlənməsi və yeni xidmətlərin təqdim olunması ilə nəticələnir. Rəqabətin güclü olduğu bazarda, qiymətlər tənzimlənərək təklif və tələb arasında təbii balans yaranır, bu da iqtisadiyyatın səmərəliliyini artırır. Bundan əlavə, rəqabət bazar iqtisadiyyatında təbii olaraq daha sərbəst və effektiv fəaliyyətə şərait yaradır. Bazar iştirakçıları öz mövqelərini qorumaq və bazar payını artırmaq üçün daim yeni strategiyalar axtarır və tətbiq edirlər. Bu, ümumilikdə iqtisadiyyatın inkişafına və resursların daha səmərəli istifadəsinə gətirib çıxarır. Rəqabət mühiti təkmilləşdiyi müddətcə istehsalçıların bazarda qalmaq və mənfəət əldə etmək üçün yeni üsullar axtarmaları da davamlı olur.

Sahə bazarlarının tipini müəyyən edən meyar

Qeyd olunan yanaşma son dövrlərdə iqtisadi nəzəriyyənin inkişafı nəticəsində meydana çıxmışdır. Müasir dövrdə rəqabət nəzəriyyəsinin təkamülü və onun müxtəlif bazar növlərindəki funksiyaları daha da aydınlaşmışdır. Əvvəlki dövrlərlə müqayisədə, bu yanaşmada rəqabət yalnız bir iqtisadi mexanizm kimi deyil, həm də iqtisadi subyektlər arasında bir növ "yarış" və ya mübarizə kimi qiymətləndirilir. Bu mübarizə bazarda dominant mövqe əldə etmək, resurslardan daha səmərəli istifadə etmək və ən yaxşı şərtlərlə istehsal və ticarət etmək məqsədinə yönəlir. İqtisadi nəzəriyyənin inkişafı nəticəsində rəqabət daha çox bazar iştirakçılarının qarşılıqlı təsirlərinin, onların bazar şərtləri ilə uyğunlaşmalarının və bir-birilə mübarizə aparmalarının bir forması kimi qəbul edilir. Həmçinin, müasir nəzəriyyələr rəqabətə təkcə qiymət mübarizəsi kimi yanaşmır, həm də bu mübarizənin istehsal üsullarına, yeniliklərə, xidmətlərin keyfiyyətinə və digər iqtisadi amillərə necə təsir etdiyini dəqiq şəkildə müəyyənləşdirir. Bu yanaşma, müasir iqtisadiyyatın əsas xüsusiyyətlərini, yəni müxtəlif bazar növlərinin müxtəlif rəqabət şərtləri və mexanizmləri ilə necə işlədiyini daha yaxşı başa düşməyə imkan verir. Bu, rəqabət prosesinin daha kompleks və çoxşaxəli olduğunu göstərir, çünki rəqabət yalnız qiymət və məhsul təklifi ilə məhdudlaşmır, eyni zamanda xidmətlərin, texnologiyanın, istehsal üsullarının və əmək şəraitinin inkişafına da təsir göstərir. Beləliklə, bu yanaşma müasir iqtisadi nəzəriyyənin təkamülünü və onun rəqabət proseslərini daha çox inteqrasiya və qarşılıqlı təsirə əsaslanan bir quruluşda qiymətləndirdiyini göstərir. Bu, bazarda iştirak edən bütün subyektlərin, xüsusən də istehsalçılar və istehlakçılar arasındakı qarşılıqlı əlaqələrin daha geniş və kompleks bir şəkildə başa düşülməsinə kömək edir. Rəqabət yalnız iqtisadi mübarizənin bir növü deyil, həm də bazarların işləmə mexanizmini və iqtisadi inkişafı stimullaşdıran bir qüvvədir.

Yarış yanaşması kimi - rəqabət

Bu hal yerli qanunvericilik aktlarında da öz əksini tapmışdır. Bu yanaşmaya görə təsərrüfat subyektləri bazar uğrunda, alıcı uğrunda bir-biri ilə yarışır. Hər bir təsərrüfat subyekti bazarda daha geniş seqment tutmaq, daha çox məhsul satmaq, daha çox qazanmaq üçün rəqiblərlə yarışır. Nəticədə isə qazanan istehlakçılar, iqtisadiyyat olur. Bu yanaşma böyük Avstriya iqtisadçısı Şumpeterin fikirləri ilə daha çox uzlaşır. Sahibkar hər zaman daha çox qazanmaq üçün mübarizə aparır və “sahibkarın daha çox qazanmaq istəyi” nəticədə cəmiyyəti inkişaf etdirir. Başqa sözlə desək, rəqabətin yarışından qazanan cəmiyyət, istehlakçılar olur. Məşhur ingilis iqtisadçısı A. Marşalın nəzəriyyəsinə əsasən, rəqabət bir insanın digərinə qarşı mübarizəsini və ya müəyyən bir malın alışı və ya satışı uğrunda mübarizəni təmsil edir. Burada "insan" deyərkən, bazar subyektləri nəzərdə tutulur. Həqiqətən də, rəqabət maddi və qeyri-maddi resursların alınması və satılması uğrunda baş verən mübarizədir. Bu mübarizə nəticədə istehlakçıya müsbət təsir göstərir. Əgər bazarda müsbət rəqabət mühiti varsa və sahibkarlar rəqabət nəticəsində istehsal etdikləri məhsulların qiymətlərini mümkün olan ən aşağı həddə endirməyə çalışırlarsa, o zaman bu vəziyyətdən ən çox istehlakçılar faydalanır. Biznes mühitində davamlı olaraq baş verən rəqabət, təsərrüfat subyektlərini istehsal etdikləri məhsullarda yeniliklər etməyə, satış qiymətlərini optimallaşdırmağa və rəqabət qabiliy-

yətliliyini artırmaq üçün müxtəlif addımlar atmağa təşviq edir. Lakin, rəqabət qabiliyyətinin inkişafı yalnız bu fəaliyyətlərlə məhdudlaşmır, həm də bunun üçün uyğun və müsbət rəqabət mühitinin mövcudluğu vacibdir. Bir təsərrüfat subyekti nə qədər yüksək rəqabət qabiliyyətinə malik olsa da, həmin qabiliyyətin tətbiqinə imkan verən münbit mühit olmadıqda, o, öz potensialını tam şəkildə ortaya qoya bilməz. Məsələn, uğurlu bir xokkeyçi, əgər yüksək keyfiyyətli xokkey meydançası yoxdur və ya müvafiq şərait təmin olunmayıbsa, öz bacarıqlarını maksimal dərəcədə nümayiş etdirə bilməyəcək. Xokkeyçinin bütün potensialını ortaya qoyması üçün, müvafiq meydança lazımdır. Bu yanaşmadan belə bir nəticəyə gəlmək olar ki, rəqabət yalnız özlüyündə kifayət etmir, həm də rəqabət mühiti və bazar şəraiti bu rəqabətin baş verməsi üçün əsas şəraiti yaradır. Xokkey meydançasının rolunu bazar və rəqabət mühiti oynayır. Xokkeydən fərqli olaraq, burada qalib gələn yalnız bir müəssisə deyil, ümumilikdə istehlakçılar ordusu daha keyfiyyətli məhsul və xidmətlərə daha əlçatan olur.

Amerikalı iqtisadçı M. Porter rəqabət məsələsini istehsal, investisiya, yenilik və texnoloji üstünlük kimi dörd əsas aspektdən analiz etmişdir. İstehsal amilləri əsasında rəqabət qabiliyyətinin inkişafı və rəqabət üstünlüyünün əldə edilməsi, bir ölkənin mövcud resurslarına (təbii sərvətlər, işçi qüvvəsi və s.) sahib olması və bu resurslardan səmərəli istifadə etməsi ilə sıx bağlıdır. Bu, həmçinin istehsal xərcləri, qiymətlər və valyuta məzənnələri kimi faktorlarla əlaqədardır. Beynəlxalq təcrübə göstərir ki, yalnız istehsal amilləri əsasında rəqabət qabiliyyətinin formalaşdırılması, ölkənin iqtisadiyyatını dünya bazarının dəyişən tələblərinə cavab verə bilməyəcək şəkildə məhdudlaşdırır. Bu, xüsusilə dünya iqtisadi böhranları zamanı iqtisadiyyatın tələblərə və qiymət dəyişikliklərinə həssas olmasına səbəb olur. İstehsal amillərinin tükənməsi vəziyyətində, bu cür iqtisadiyyatlar ciddi çətinliklərlə qarşılaşa bilər.

İnvestisiya əsaslı rəqabət qabiliyyəti mərhələsi eyni zamanda texnoloji inkişaf mərhələsi kimi xarakterizə olunur. Bu mərhələdə iqtisadiyyatın üstünlükləri müəssisələrin müasir avadanlıqlara və qabaqcıl texnologiyalara kapital yatırımları vasitəsilə təmin edilir. Texnologiyalar əsasən dünya bazarından və ya beynəlxalq tərəfdaşlıq çərçivəsində əldə olunur [1, s.7-14]. İnvestisiyalar yalnız avadanlıq və texnologiya alışı ilə məhdudlaşmır; lisenziyaların əldə edilməsi, müştərək müəssisələrin yaradılması və müxtəlif sərmayə layihələrinin dəstəklənməsi də bu prosesə daxildir. Artan investisiya həcmi yeni texnoloji amillərin inkişafını və müasir infrastrukturun formalaşmasını stimullaşdırır. İnfrastruktur isə həm istehsalın səmərəliliyini artırmaq, həm də yeni məhsul və xidmətlərin bazara çıxışını təmin etmək baxımından vacibdir. Yüksək investisiyalar elmi-texniki tərəqqiyə təkan verir, müəssisələrin beynəlxalq bazarda rəqabət gücünü möhkəmləndirir. Bu mərhələ həmçinin insan kapitalına sərmayəni zəruri edir. Yeni texnologiyaların səmərəli tətbiqi üçün müasir bilik və bacarıqlara malik işçi qüvvəsinin hazırlanması mühüm əhəmiyyət kəsb edir. Beləliklə, investisiyalar yalnız texniki avadanlıqların inkişafına deyil, həm də kadr potensialının artırılmasına və innovativ bacarıqların formalaşdırılmasına yönəlməlidir. Bu yanaşma müəssisələrə istehsal proseslərini optimallaşdırmaqla yanaşı, bazarda mövqelərini gücləndirməyə də imkan verir. Nəticə etibarilə, texnoloji inkişaf təkcə müəssisə səviyyəsində deyil, həm də ölkə miqyasında rəqabət qabiliyyətinin yüksəlməsinə gətirib çıxarır. Qlobal bazarda uğur üçün resursların mövcudluğu ilə yanaşı, onların səmərəli istifadəsi və innovativ texnologiyalarla dəstəklənən iqtisadi fəaliyyətlərin genişləndirilməsi zəruridir. Bu proses həm yeni infrastrukturun və texnoloji həllərin inkişafına, həm də əlavə məşğulluq imkanlarının yaradılmasına şərait yaradır.

Texnoloji üstünlük bilik ehtiyatları, texnoloji resurslar və investisiyalar kimi müxtəlif amillərin məcmusu olub, müasir rəqabət üstünlüklərinin formalaşmasında həlledici rol oynayır. Bu üstünlük yalnız elmi-texniki yeniliklərlə deyil, həm də iqtisadiyyatın strukturunun mütərəqqi inkişaf tələblərinə uyğunlaşdırılması ilə bağlıdır. Ölkə iqtisadiyyatının sənaye quruluşu rəqabətə davamlı olduqda, texnoloji tərəqqinin imkanları səmərəli şəkildə reallaşdırılır. Rəqabət mühitində texnoloji üstünlüyün təmin edilməsi iqtisadi və texnoloji resurslardan məqsədyönlü istifadəyə əsaslanır və qlobal bazarda mövqelərin möhkəmləndirilməsində fundamental əhəmiyyət kəsb edir. Beləliklə, müasir iqtisadi inkişafın əsas şərti innovasiya yönümlü modelə keçid və davamlı texnoloji yenilik-

lərin tətbiqidir. Bu inkişaf, yalnız yeni texnologiya və texnikanın tətbiqindən deyil, həm də iqtisadiyyatın sosial və siyasi sahələrində əlverişli şəraitin yaradılmasından asılıdır. Yalnız bu şəraitdə iqtisadiyyatda texnoloji irəliləyiş mümkün olacaq və nəticədə ölkə, dünya bazarında daha rəqabətqabiliyyətli bir mövqe əldə edəcəkdir. Bu mənada, texnologiya əsaslı rəqabətə nəzər yetirərkən, diqqət yetirilməsi vacib olan başqa bir mühüm amil isə insan kapitalına investisiyadır. Texnologiya əsasında inkişaf edən iqtisadiyyatda yalnız yeni avadanlıqlar və texnologiyalar deyil, eyni zamanda həmin texnologiyaları idarə etmək bacarığına sahib olan işçi qüvvəsinin olması mühüm rol oynayır. Yəni, müəssisələr yalnız texnoloji resurslara yatırım etməkdən ibarət olmamalıdır; onlar həm də kadr potensialını inkişaf etdirməli, müasir texnologiyaları effektiv istifadə edə biləcək innovativ işçiləri cəlb etməli və onlara müvafiq təlimlər keçməlidirlər. Bununla yanaşı, innovativ kadrların hazırlanması prosesi mütəmadi olmalı və şirkətin ehtiyaclarına uyğun olaraq yeni kadrların işə götürülməsi də vacibdir. Yalnız bu cür investisiyalar sayəsində texnoloji inkişafın tətbiqi effektiv ola bilər, əks halda, tətbiq edilən yeni texnologiyalar və innovativ cihazlar müəssisənin rəqabət qabiliyyətini artırmaqda kifayət qədər təsirli olmayacaqdır. Rəqabətqabiliyyətlilik, xüsusilə yeniliklərin tətbiqi əsasında formalaşır və bu, müxtəlif inkişaf səviyyələrinə malik ölkələrdə müxtəlif sürətlə baş verə bilər. İlk növbədə, bəzi sahələr müəyyən yenilikləri tətbiq edərək rəqabət üstünlüyü əldə etməyə çalışırlar. Bu, müxtəlif sahələrdə inkişaf edən və daha rəqabətqabiliyyətli olan istehsal sistemlərinin yaranmasına səbəb olur. Təkmilləşdirmə prosesi zamanla digər sahələrə də yayılır, bu da ümumi iqtisadi mühitin inkişafına və rəqabət qabiliyyətinin artırılmasına şərait yaradır. Daha dinamik və qabaqcıl iqtisadiyyata sahib ölkələrdə bu inkişafın şaquli və üfüqi şəkildə genişlənməsi, həmçinin yeni iqtisadi və texnoloji xarakterlərin formalaşması mümkün olur. Həmin prosesin sürəti, həm yeni, həm də mövcud təsərrüfat subyektlərinin işgüzar fəallığının canlanmasından asılıdır. XX əsrin 90-cı illərindən etibarən inkişaf etmiş və zəif inkişaf etmiş ölkələr arasında yaranan iqtisadi fərq, əsasən texnoloji fərqlə əlaqələndirilir. İnkişaf etmiş ölkələr müasir texnologiyaların tərtibi və tətbiqi sahəsində böyük irəliləyişlər əldə edərkən, zəif inkişaf etmiş ölkələr bu texnologiyaları nəinki özləri yarada bilirlər, hətta onları bazardan əldə etməkdə də çətinlik çəkirlər. Müasir texnologiyaların mürəkkəbliyi və yüksək qiyməti zəif inkişaf etmiş ölkələrin iqtisadiyyatlarında ciddi məhdudiyyətlər yaradır. Bu ölkələr, daha çox texnoloji ixracatçı ölkələrə asılı vəziyyətə düşür və buna görə də innovasiya sahəsində geri qalır, nəticə etibarilə onların iqtisadi inkişafı ləngiyir. Yekunda, texnoloji üstünlük əsasında rəqabət, yalnız texnoloji və iqtisadi resursların istifadəsi ilə deyil, həm də bu resursların səmərəli şəkildə idarə edilməsi, kadr potensialının inkişaf etdirilməsi və ölkə iqtisadiyyatının innovasiyaya açıq olması ilə bağlıdır. İqtisadiyyatın inkişafı üçün texnoloji üstünlüyün əldə edilməsi vacibdir və bu, hər bir ölkənin davamlı inkişafı və dünya iqtisadiyyatında lider mövqe tutması üçün əsas şərtlərdən biridir.

Sərvət əsasında rəqabət mərhələsi iqtisadi inkişafın son mərhələsini təşkil edir və burada əsas hərəkətverici qüvvə əvvəlki dövrlərdə toplanmış sərvət olur. Bu mərhələnin başlıca problemi mövcud sərvətlərin qorunması ilə kifayətlənilməsi, lakin onların artırılması və ya yenidən dəyərləndirilməsi üçün səmərəli tədbirlərin görülməməsidir. Nəticədə iqtisadiyyat əvvəlki mərhələlərdəki innovativ dinamizmini itirir və stagnasiya meyilləri güclənir. Bu şəraitdə müəssisələr yeni sərmayə qoyuluşlarına maraq göstərmirlər, çünki mövcud vəziyyət onlara kifayət qədər sabitlik təmin edir. Yeniliklərə sərmayə qoymaqdan yayınaraq, sadəcə mövcud resurslardan maksimum məhsuldarlıqla istifadə etməyə çalışırlar. Belə bir yanaşma beynəlxalq rəqabətdə mənfi nəticələr doğurur: innovasiya və texnoloji inkişafdan geri qalan müəssisələr dünya bazarlarında mövqelərini itirməyə başlayırlar. Beləliklə, sərvət əsasında rəqabət mərhələsi iqtisadiyyata müvəqqəti sabitlik versə də, uzunmüddətli perspektivdə onun rəqabət qabiliyyətini zəiflədir və qlobal bazarda gerilməyə səbəb olur. Bundan əlavə, bu mərhələdə müəssisələr yeni bazarlara daxil olmaq və ya mövcud bazarlarda daha çox pay əldə etmək üçün yeni məhsul və xidmətlər təqdim etməkdə maraqlı olmurlar. Bu vəziyyət iqtisadiyyatın ümumi böyümə tempini zəiflədir, çünki məhsul və xidmətlərin təklifi artırılmır və yeniliklər geridə qalır. Nəticədə, iqtisadiyyatın inkişafı təkcə mövcud sərvətlərin qorunması ilə məhdudlaşır və uzunmüddətli dövrdə bu, tənəzzülə yol açır. Bu mərhələ-

nin ən böyük təhlili isə, iqtisadiyyatın əsasən sərvətə əsaslanması ilə yanaşı, bu sərvətlərin tamamilə tükənməsi təhlükəsinin yaranmasıdır. Əgər yeni texnologiyalar, innovasiyalar və investisiyalar daxil edilməsə, iqtisadiyyatın inkişafı dayandırılacaq və sərvət əsasında fəaliyyət göstərən müəssisələr rəqabət qabiliyyətlərini itirərək bazarda mövqelərini itirəcəklər. Bu vəziyyət yalnız müəssisələrin deyil, ümumiyyətlə ölkənin iqtisadiyyatının da zəifləməsinə səbəb olacaqdır.

Rəqabət, əmtəə istehsalının daxili xüsusiyyəti olaraq, onun inkişafının əsas vasitələrindən biri kimi qəbul edilir. Bu prosesin əsasında hər bir şəxsin öz maraqlarını qoruyaraq, daha çox mənfəət əldə etməyə çalışması dayanır. Rəqabət, ilk növbədə müəyyən bir məhsul üzrə bazarda çox sayda müstəqil satıcı və alıcının mövcudluğuna əsaslanır. İkinci əsas şərt isə satıcı və alıcıların bazara sərbəst şəkildə daxil olub, lazım gəldikdə oradan çıxa bilmələridir. Bu, bazarın fəaliyyətini tənzimləyən ən vacib amillərdən biridir, çünki bazar iştirakçıları azad şəkildə hərəkət edərək, bazarın təklif və tələb balansını müəyyən edirlər [10,s.22-28]. Elmi-texniki inqilabın təsiri altında rəqabət, istehsal prosesində elmin və texnologiyanın tətbiqini sürətləndirərək, məhsulun keyfiyyətini müxtəlif çeşidlərdə istehlakçılara təqdim etməyə imkan verir. Bu, həmçinin əmək məhsuldarlığının artırılmasına, istehsalın səmərəliliyinin yüksəlməsinə və məhsulun xərclərinin azaldılmasına şərait yaradır. Beləliklə, rəqabət yalnız bazar iştirakçıları arasında bir-birini üstələmə mübarizəsi olaraq qalmaz, həm də istehsalın bütün mərhələlərində texnoloji və elmi irəliləyişlərə təkan verən bir qüvvəyə çevrilir. Rəqabət şəraitində bazar iqtisadiyyatı özünü tənzimləyir və bu prosesin əsas vasitəsi bazarın kortəbii tənzimlənməsidir. Yəni, rəqabət yalnız məhsulun təklifini və tələbini müəyyən etmir, həm də bazarda qiymətlərin müəyyənləşməsi, istehsal üsullarının inkişafı və innovasiyaların tətbiqi kimi faktorlara təsir edir. Belə bir iqtisadi mühitdə, hər bir istehsalçı və satıcı bazarda daha sərfəli mövqe tutmaq və məhsulunun keyfiyyətini artırmaq üçün davamlı olaraq yeniliklərə yatırım etməyə məcbur olur. Bu isə, nəticə etibarilə bazarda daha geniş çeşiddə məhsulların təqdim edilməsi və istehlakçıların daha yaxşı şərtlərlə təmin olunması ilə nəticələnir. Bu kontekstdə rəqabət, bazar mexanizminin tənzimləyici funksiyasını yerinə yetirir və eyni zamanda bazar iştirakçılarının iqtisadi fəaliyyətlərini daha səmərəli və məhsuldar edir. Elmi-texniki inqilab şəraitində rəqabət yalnız iqtisadi və texnoloji inkişafın stimullaşdırıcısı deyil, həm də bazarın uzunmüddətli sabitliyini təmin edən və davamlı inkişafı dəstəkləyən mühüm bir elementdir.

Kapitalizmin ilkin mərhələsində, inhisarçılıq yaranmamışdan əvvəl, bazarda azad rəqabət əsas prinsip idi. Bu rəqabət iki formada təzahür edirdi: sahədaxili və sahələrarası rəqabət. Sahədaxili rəqabət eyni sektorda fəaliyyət göstərən müəssisələrin bazar payını artırmaq və əlavə mənfəət əldə etmək üçün apardıqları mübarizəni ifadə edir [2, s.143-165]. Bu proses əsasən istehsal xərclərinin azaldılması, məhsul və xidmət keyfiyyətinin yüksəldilməsi, satış qiymətlərinin tənzimlənməsi və müştəriyə daha əlverişli şərtlərin təqdim olunması istiqamətində aparılır. Sahədaxili rəqabət istehsalçılara texnoloji yeniliklər tətbiq etməyi, məhsulun funksionallığını və davamlılığını artırmağı, istehsal proseslərinin səmərəliliyini yüksəltməyi tələb edir. Bu isə bazarda məhsul və xidmətlərin daha əlverişli şərtlərlə istehsalını stimullaşdırır, istehlakçılara daha geniş seçim imkanı yaradır. Beləliklə, sahədaxili rəqabət bazar iqtisadiyyatının inkişafını sürətləndirən mühüm mexanizmdir. O, müəssisələri daima yeniliklər etməyə, xidmətlərini təkmilləşdirməyə və müştəri bazasını qoruyub genişləndirməyə təşviq edir. Yalnız bu halda müəssisələr bazarda mövqelərini qoruyub saxlaya bilirlər. Sahələrarası rəqabət isə müxtəlif iqtisadi sektorlarda fəaliyyət göstərən sahibkarlar arasında baş verən rəqabət növüdür. Bu halda, sahibkarlar yalnız eyni sahədə fəaliyyət göstərən digər müəssisələrlə deyil, fərqli sahələrdən olan müəssisələrlə də rəqabət aparırlar. Məsələn, avtomobil istehsalçıları ilə dəmir yolları və nəqliyyat xidmətləri göstərən şirkətlər arasında olan rəqabət sahələrarası rəqabətə nümunə göstərilə bilər. Bu rəqabət növü daha geniş bazar şərtləri, məhsul və xidmətlər arasında əvəzlənmə və istehlakçıların müxtəlif seçim imkanları ilə nəticələnir. Sahədaxili və sahələrarası rəqabət bir-birini tamamlayan, lakin fərqli dinamikaları olan iki əsas rəqabət növüdür. Hər iki rəqabət növü, ümumilikdə, bazar iqtisadiyyatında istehsalın artmasına, məhsulun keyfiyyətinin yüksəlməsinə və istehlakçıların daha sərfəli qiymətlərlə məhsul əldə etməsinə gətirib çıxarır.

Məlumdur ki, hər bir dövrdə eyni sahədə fəaliyyət göstərən istehsalçılar texniki təminat, işçi qüvvəsinin peşəkarlığı və əmək məhsuldarlığı baxımından fərqlənirlər. Bu, istehsal olunan əmtəələrin fərdi dəyərlərində müxtəliflik yaradır. Lakin bazar şəraitində əmtəələr fərdi istehsal xərclərinə uyğun qiymətlərlə deyil, ictimai zəruri əmək məsrəfləri əsasında satılır. İctimai zəruri əmək məsrəflərindən yüksək məsrəflərlə istehsal edən müəssisələr uzunmüddətli perspektivdə rəqabətə davam gətirə bilməyərək bazardan çıxmaq riski ilə üzləşirlər. Əksinə, istehsal xərcləri orta səviyyədən aşağı olan təsərrüfat subyektləri əlavə mənfəət əldə edirlər. Rasionallıq nümayiş etdirən sahibkarlar bu əlavə mənfəəti xərclərin azaldılmasına yönəldir, elmi-texniki nailiyyətləri və innovativ texnologiyaları tətbiq etməklə istehsalın səmərəliliyini artırırlar. Nəticədə texniki və təşkilati üstünlüklərə malik müəssisələr daha yüksək məhsuldarlıq və əlavə mənfəət əldə edir, geri qalan müəssisələr isə müflisləşməyə məhkum olurlar. Beləliklə, sahədaxili rəqabət istehsalçıları elmi-texniki tərəqqiyə adaptasiyaya sövq edir, yeni texnologiyaların daha sürətli tətbiqinə şərait yaradır və istehsal qüvvələrinin dinamik inkişafını təmin edir [12, s.137-150].

Kapitalist iqtisadiyyatda sahibkarların əsas məqsədi mümkün qədər yüksək mənfəət əldə etməkdir. Onlar kapitallarını ən çox gəlir gətirən sahələrə yönəldir, fəaliyyət sahəsini isə mənfəət normasının səviyyəsi müəyyənləşdirir. Daha az gəlirli sahələrdən kapital çıxarılır, nəticədə həmin sahələrdə istehsal azalır, təklif azalmasına qarşı tələb artır və qiymətlər yüksəlir. Bu isə mənfəət normasının orta səviyyəyə çatmasına gətirir. Digər tərəfdən, yüksək mənfəət gətirən sahələrə kapital axını sahədaxili rəqabəti gücləndirir. Sahibkarların çoxalması ilə istehsal genişlənir, təklif artır və nəticədə qiymətlər düşərək mənfəət norması azalır. Beləliklə, kapitalın bir sahədən digərinə sərbəst axını mənfəət normasının tədricən bərabərləşməsini təmin edir. Bu proses bazarın təbii tənzimlənmə mexanizmidir. Azad rəqabət şəraitində təklif və tələb arasındakı dəyişikliklər qiymətləri və mənfəət səviyyəsini tənzimləyir, ümumi mənfəət norması bərabərləşir və orta istehsal qiymətləri formalaşır. Nəticədə, iqtisadiyyatda balans və dayanıqlı inkişaf təmin olunur, rəqabət isə bu balansın qorunmasında əsas mexanizm rolunu oynayır [3, s.76-92].

Qərb iqtisadçılarının yanaşmalarına görə, “rəqabətqabiliyyətlilik” sabit kateqoriya deyil, daim dəyişən və dinamik bir fenomendir. Onun inkişafı birbaşa və dolayı xarici amillərlə bağlıdır. Bu dinamiklik təsərrüfat subyektlərini bazarda dəyişən şərtlərə uyğunlaşmağa, istehsalı stimullaşdırmağa və yeniliklər tətbiq etməyə məcbur edir. Sahibkarların bazarda əldə etdikləri üstünlüklər müvəqqəti xarakter daşıyır və davamlı yeniliklər olmadıqda rəqiblər tərəfindən asanlıqla əvəz oluna bilər. Buna görə rəqabətqabiliyyətlilik yalnız mövqeyin qorunması ilə deyil, həm də onun davamlı inkişafı ilə bağlıdır. Müasir şəraitdə rəqabət üstünlüyü əldə etmək üçün istehsalçıların innovativ texnologiyalara sərmayə qoyması, məhsul keyfiyyətini yaxşılaşdırması, qiymət siyasətini optimallaşdırması və bazar trendlərinə uyğunlaşması zəruridir. Yalnız bu halda müəssisə rəqabət mövqeyini qorumaqla yanaşı, daha da gücləndirə bilər. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bazar mexanizmi ən səmərəli şəkildə azad və mütərəqqi rəqabət şəraitində fəaliyyət göstərir. Lakin real iqtisadi mühitdə bu proses tamamilə ideal şəkildə reallaşmır. Bazarın səmərəli işləməsi üçün istehsal və məhsul müxtəlifliyi, firmaların bazara sərbəst daxilolma imkanları, alıcı və satıcıların çoxluğu kimi struktur amillər mühüm əhəmiyyət kəsb edir. Bu şəraitdə heç bir iştirakçı bazar qiymətlərini təkbaşına müəyyən edə bilmir; qiymətlər və resurs bölgüsü ümumi rəqabət mexanizminin nəticəsi olaraq formalaşır. Beləliklə, mütərəqqi rəqabət şəraitində hər bir subyekt mövqeyini qorumaq və gücləndirmək üçün fasiləsiz mübarizə aparmalıdır.

Biznes fəaliyyətində rəqabət bazarın əmtəə ilə təminatını yaxşılaşdıran dinamik prosesdir. Sahibkarlar üçün rəqabət istehsalın daha sərfəli şərtlərlə həyata keçirilməsi və satışın artırılması mübarizəsini ifadə edir. Rəqabət yalnız qiymətlərin deyil, istehsalın həcmi və tempi üzərində də tənzimləyici rol oynayır. Bu, müəssisələri elmi-texniki nailiyyətlərdən istifadə etməyə, əmək məhsuldarlığını yüksəltməyə və təşkilati strukturu təkmilləşdirməyə vadar edir. Rəqabət həm də innovasiyaları stimullaşdıraraq səmərəsiz müəssisələrin bazardan çıxmasına gətirib çıxarır və resursların daha səmərəli istifadəsinə şərait yaradır. Məşhur iqtisadçı Yozef Şumpeter rəqabəti yalnız sahibkarların bir-birinə qarşı mübarizəsi kimi deyil, “yeni ilə köhnə” arasındakı mübarizə kimi

təqdim edir. Onun fikrincə, sahibkarın əsas rolu innovasiyaları tətbiq etməklə köhnə texnologiyaları arxada qoymaqdır. Bu yanaşmada sahibkar yaradıcı rol daşıyır və bazar şərtlərini dəyişdirərək rəqibləri ilə mübarizədə üstünlük qazanır. Lakin innovasiyaların tətbiqi sahibkarlar üçün əlavə maliyyə və təşkilati çətinliklər yaradır. Yeni texnologiyaların alınması və tətbiqi böyük resurs tələb etsə də, bazar üstünlüyü və liderlik üçün mühüm vasitədir. Bu prosesdə əsas amillərdən biri insan kapitalıdır. Texnologiyaların uğurlu tətbiqi üçün təlim görmüş mütəxəssislər, innovativ düşüncəyə sahib kadrlar və uyğun təşkilati struktur zəruridir. Beləliklə, Şumpeterin nəzəriyyəsi göstərir ki, rəqabət yalnız məhsul və xidmətlərə deyil, həm də ideya, innovasiya və insan kapitalına əsaslanır. Müəssisələr texnologiyaya və insan resurslarına sərmayə qoymaqla bazarda mövqelərini möhkəmləndirə bilirlər.

Nəticə

Kapitalizm dövründə, xüsusilə bazar iqtisadiyyatının tam şəkildə formalaşdığı müasir dövrümüzdə, biznes subyektlərinin səmərəli inkişafını rəqabət olmadan təsəvvür etmək tamamilə qeyri-mümkündür. Rəqabət, bizneslərin inkişafı və bazarda mövqelərini qorumaq üçün təməl amil olmaqla yanaşı, həm də məhsul və xidmətlərin keyfiyyətinin yüksəlməsinə və daha geniş müştəri bazasına çatmağa səbəb olur. Bu baxımdan, təsərrüfat subyektlərinin istehsal etdiyi əmtəənin rəqabətqabiliyyətliliyi, yalnız onun öz keyfiyyətinə və qiymətinə bağlı deyil, həm də bazar şəraitinə uyğunluğuna, müştəri tələblərinə cavab verməsinə və davamlı innovasiyalara açıq olmasına əsaslanır. Əgər bir müəssisə istehsal etdiyi məhsulun keyfiyyət göstəriciləri və qiyməti baxımından rəqiblərindən heç bir üstünlüyə malik deyilsə, o zaman həmin məhsul bazarda rəqabətqabiliyyətli hesab edilə bilməz. Yəni, istehsal edilən məhsul, eyni məhsul kateqoriyasındakı digər məhsullardan heç bir cəhətdən fərqlənmirsə, müştərilər üçün heç bir əlavə dəyər təklif etmir və buna görə də bu məhsulun bazarda uğur qazanması çətin olur. Məhz buna görə, müasir bazar iqtisadiyyatında rəqabətqabiliyyətli məhsul yalnız keyfiyyət və qiymət baxımından müştərinin gözləntilərinə cavab vermir, həm də ona xüsusi üstünlüklər təqdim edir ki, bu da müştərini digər oxşar məhsullardan daha çox cəlb edir. Rəqabətə davam gətirən məhsul, ümumiyyətlə istehlakçı tərəfindən əvəzedilməz hesab edilir. Bu, istehlakçının həmin məhsulu, bazardakı digər oxşar məhsullarla müqayisə edərək, eyni keyfiyyəti və eyni qiyməti tapmaqda çətinlik çəkdiyi və nəticədə həmin məhsulu yeganə düzgün seçim kimi qəbul etməsidir. Belə məhsul, yalnız bu sahədə bazarın lideri olmaqla yanaşı, həm də müştəriyə əlavə dəyər təmin edən bir element olaraq bazarda mövqeyini gücləndirir. Bir çox hallarda, yüksək keyfiyyətli və optimal qiymətlə istehsal edilən məhsul, müəyyən bir dövr ərzində bazarda liderlik qazanır. Zaman keçdikcə, bu məhsul yalnız bazarda dominant mövqe əldə etməklə kifayətlənmir, həm də sənaye standartlarına çevrilir. Digər müəssisələr həmin məhsulu özlərinə nümunə olaraq qəbul edir və bu məhsulun xüsusiyyətlərini mənimsəməyə çalışırlar. Nəticə etibarilə, bu məhsul bazarda yalnız innovativ liderlik etməklə yanaşı, həm də rəqabət mühitini formalaşdıraraq, digər istehsalçılara istiqamət verir. Bu vəziyyətin davamlılığı yalnız bazar liderinin məhsulunun mükəmməlliyi ilə deyil, həm də onun istehsalçı müəssisəsinin davamlı olaraq innovasiya və keyfiyyətin artırılmasına investisiya qoyması ilə təmin edilir. Beləliklə, rəqabət mühiti yalnız məhsulun inkişafını deyil, həm də bazar iştirakçılarının fəaliyyətini daha səmərəli və müştəriyönümlü etməyə vadar edir. Bu isə öz növbəsində, iqtisadi inkişafın əsas göstəricilərindən biri olaraq, müəssisələrin bazar tələblərinə uyğunlaşması və davamlılığını təmin etməsi baxımından vacibdir.

ƏDƏBİYYAT

1. Bayramov Ş.V. “Azərbaycanda investisiya mühitinin birbaşa xarici investisiyalara təsirinin qiymətləndirilməsi”. Mingəçevir, MDU, “Dayanıqlı inkişaf” jurnalı, 2022, Cild 2, №2, səh. 5-15.
2. Əliquliyev, A. Z. – Sahibkarlıq və Rəqabət: Azərbaycan İqtisadiyyatının Yenilikçi Aspektləri, səh. 10-230, 2019, Bakı: İqtisadiyyat və Sosial Tədqiqatlar Mərkəzi
3. Nuriyev Ə.X. “Davamlı və tarazlı regional inkişaf”. Bakı, “Avropa” nəşriyyatı, 2017, 242 səh.

4. Vəliyev D.Ə., Əsədov A.M."Beynəlxalq İqtisadiyyat". Bakı, "Avropa" nəşriyyatı, 2012, 403 səh.
5. Vəliyev T. S., Babayev Ə.P. və b. "İqtisadi nəzəriyyə". Dərslik, Bakı, 2001, 692 s
6. Asadzada Z.A. "Favorable competitive environment as a factor determining business development". New York, 9th Internatıonal New York Conference on Evolvıng Trends ın Interdıscıplınary Research & Practıces, 2023, səh. 436-442;
7. Gorski, P. A., & Machin, S. – Innovation, Market Structure and the Economy, səh. 5-345, 2020, Oxford University Press, Oxford.
8. United Nations Economic and Social Council, Progress towards the Sustainable Development Goals – Report of the Secretary General, 8 May 2019.
9. Chron newsletters – The relationship between government and business entities,2019.- by Fred Wilham.
10. H. Rasher Re-focusing performance management for high performance, Compensation & Benefits Review, October, pp 20–30 (2017)
11. Grossman, Gene M., Elhanan Helman and Thomas Sampson, The Productivity Slowdown and the Declining Labor Share: A Neoclassical Exploration, NBER Working Paper No. 23853, National Bureau of Economic Research, 2017
12. Merchand, D.A., Kettinger,W.J. Information orientation – The link to Business Performance, OUP, Oxford, UK, Pp. 173-90
13. Performance Management and Appraisal Systems—HR Tools for Global Competitiveness, Sage Publications, London, UK, pp.173-99.
14. Suresh C Babu, Shailendra N Gajanan and J Arne Hallam: Nutrition Economics: Principles and policy applications: Elsevier, London, UK: 2016, i-xviii + 386 pp. ISBN 978-0-12-800878-2
15. https://en.wikipedia.org/wiki/Competition
16. https://www.researchgate.net/publication/26459971_Regional_spatial_and_environmental_indicators_for_an_assessment_of_regional_development_structure_and_potentials

Ламия Аскер кызы Азадлы
Магистрант, Азербайджанский Университет Кооперации
e-mail: azadli.lamiya@gmail.com
Адалят Махиаддин оглы Асадов
Кандидат экономических наук, доцент, adalatasad50@gmail.com

Теоретические и практические аспекты роли конкуренции в устойчивом развитии бизнес-субъектов

Резюме

Цель исследования – изучить теоретическое и практическое значение фактора конкуренции в устойчивом развитии бизнес-субъектов и определить стратегические направления повышения эффективности конкурентной среды.

Методология – Применен системный и комплексный подход с использованием методов индукции и дедукции. Проведен сравнительный анализ различных видов и подходов к конкуренции, а также обобщения на основе международной экономической литературы и теоретических моделей.

Практическая значимость – Полученные результаты могут быть использованы при формировании государственной политики в области развития предпринимательства, повышении конкурентоспособности в бизнес-среде, а также при внедрении стандартов качества в производстве и сфере услуг. Результаты ориентированы на совершенствование конкурентных механизмов как в теоретическом, так и в практическом плане.

Результаты исследования – Показано, что конкуренция, являясь фундаментальным

фактором долгосрочного развития бизнес-субъектов, прямо способствует повышению качества продукции и услуг, внедрению инноваций, росту удовлетворенности клиентов и эффективному использованию ресурсов. Без конкурентоспособности устойчивое развитие невозможно, и оно обеспечивается только в условиях благоприятной конкурентной среды.

Оригинальность и научная новизна – В исследовании систематизированы различные теоретические подходы к конкуренции и раскрыта роль внутриотраслевой и межотраслевой конкуренции в экономическом развитии. Особо подчеркнуто, что конкуренция необходима не только для экономических показателей, но и для социальной и экологической устойчивости. Научная новизна заключается в рассмотрении конкуренции как ключевого условия устойчивого развития, а также в выявлении новых результатов в аспекте эффективности производства и укрепления рыночных позиций предприятий.

Ключевые слова: глобальная экономика, благоприятная конкурентная среда, бизнес-субъекты, внутриотраслевая конкуренция, межотраслевая конкуренция.

Lamiya Asgar Azadli
Master’s Student, Azerbaijan Cooperation University
e-mail: azadli.lamiya@gmail.com
Adalat Mahyaddin Asadov
PhD in Economics, Associate Professor, adalatasad50@gmail.com

Theoretical and Practical Aspects of the Role of Competition in the Sustainable Development of Business Entities

Abstract

The purpose of the study – is to examine the theoretical and practical significance of the competition factor in the sustainable development of business entities and to determine strategic directions for improving the efficiency of the competitive environment.

Methodology – A systematic and comprehensive approach was applied, using induction and deduction methods. Various types and approaches of competition were comparatively analyzed, and generalizations were made based on international economic literature and theoretical models.

Practical significance – The results can be applied in shaping state policies on entrepreneurship development, improving competitiveness in the business environment, and introducing quality standards in production and services. The findings are aimed at enhancing competition mechanisms both theoretically and practically.

Results – The study shows that competition, as a fundamental factor in the long-term development of business entities, directly contributes to improving product and service quality, implementing innovations, increasing customer satisfaction, and ensuring efficient resource use. Without competitiveness, sustainable development cannot be achieved, and this is only possible in the presence of a favorable competitive environment.

Originality and scientific novelty – The study systematizes various theoretical approaches to competition and explains the role of intra-industry and inter-industry competition in economic development. It particularly substantiates that competition is essential not only for economic outcomes but also for social and environmental sustainability. The scientific novelty lies in considering competition as a key condition for sustainable development and in presenting new results regarding production efficiency and the strengthening of enterprises’ market positions.

Keywords: global economy, favorable competitive environment, business entities, intra-industry competition, inter-industry competition.